

*Zeynalabdin NOVRUZOĞLU,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

## ŞƏHİDLƏRİN BAŞ DAŞINA

"Azadlıq", "müstəqillik",
Hamımızın dilində...
Yaxamız düşmən əlində,
Əqrəblərin quyruqları belində.
Şimaldan Cənuba,
Qərbdən Şərqə,
Başlayıblar hərbə...
İçində sapsarısı,
Qapqarası,
Ağ alası...
Hər cürəsi
Zəhri-cəhənnəm kürəsi.
Xatası qorxuludu,
Pis olan bir də odu,
Qarşı tərəf yuxuludu.
Ayılan varsa əgər,
Qurbağanın qurqurudu,
Ayının yumruğudu.
Ensə, enir öz başına,
Ya da dəyir qardaşına...
Gəl yazaq
Şəhidlərin başdaşına:
"Kim ki, Vətəni sevdi
Əcəl aldı apardı.
Vətən, vətən deyənlər
Rütbə aldı, ad aldı."

## TOXUNMAYIN MƏRDLƏRƏ

Toxunmayın mərdlərə,
Dərmandılar dərdlərə,
Qoyun gül tək səpilsin -
Şəhərlərə, kəndlərə,
Toxunmayın mərdlərə!

Gül çox olsa, yaz olar,
Gecələr bəyaz olar.
Namərdin biri çoxdur -
Mərdin mini az olar,
Toxunmayın mərdlərə!

Toxunmayın mərdlərə,
Bəşəri sərhədlərə.
Onlar sərhəd simləri,
Sipərdilər Vətənə,
Toxunmayın mərdələrə!
Toxunmayın mərdələrə!

## YALAN, QORXURAM

Düz oğlu düz
düz dayanıb
gör necə..?
Gözləyir ki,
yalan gələ
yol keçə...
Qorxuram ki,
o keçəndə
od küllənə,
ocaq keçə.
Hökm eləyə
dəmir çomaq, qara keçə.
Yalan bayraq dalğalana,
şər yalana arxalana,
Azərbaycan nehrə kimi
çalxalana.
Ayran çıxa dizə onda,
Zərbə dəyə bizə onda.
Boynumuzda boyunduruq
göyərə,
Beşulduzlar göz çıxarda,
göz dələ.
37 keçə onda
içimizdən,
Onda biri xain ola
ikimizdən, üçümüzdən.
Bu Vətənin başlarını
yığa-yağmalaya yalan.
Kor kimi tutduğunu
sıxmalaya yalan.
"Bu terrorçu,
bu qiyamçı
filan-filan..."
Sonra namərd,
yurdun üstə
sərt ulaya.
Sonra yalan
ocaq çata, tonqal qalaya...
Yaman qorxuram..!
Yalan, qorxuram!

## İÇƏ BELƏSİ...

*(Ömər Xəyyama)*

Deyirlər ki, Xəyyam şərab içirmiş,
Guya, kef çəkməkmiş onun adəti.
Meylə həmdəm olub gün keçirirmiş,
Cəhənnəmə dəyişirmiş cənnəti.

Dünyanın dərdinə çarə görməyib,
Çarəni badədə görürmüş Xəyyam.
Çarəsizlik əzabına dözməyib,
"Meynə qanı" üçün ölürmüş Xəyyam.

Masanın başında oturub qoca,
Şərab bardağı var onun əlində.
Ağlını bardağa doldurub qoca,
Süzür içənə də, içməyənə də.

Kasamı uzatdım, nə də pay aldım,
Qalıb qulağımda nəşəli səsi.
Mən şərab içmirəm, bir qurtum dadım,
Şərab içəndə də içə beləsi...

## BAXTINA BAX

Bizə düşmən olana bax,
Bizdən torpaq alana bax.
Balaca boyuna baxma,
Sən oynanan oyuna bax.

Əsl düşmən gözə dəyməz,
Siyasət var - sözə gəlməz.
Əsillər üz-üzə gəlməz,
Əsilsizin zatına bax.

Qara keşiş babasıdı,
Şeytan deyil, balasıdı,
Maşaların maşasıdı,
Qoca türkün baxtına bax...

## DİNCƏLƏRDİM...

Qocalıq, niyə gəlmisən?
Cavanlıqdan bac almağa?
Pusqu qurub, yol kəsmisən,
Gəldin məni qorxutmağa?

Əsanı çək, taqqıldatma,
Zorla vermə əllərimə.
Sümüyümü şaqqıldatma,
Ehtiyac yox köməyinə.

Nə dizimdən təpəri al,
Nə gözümdən işığı.
Bacarırsan dərd-səri al,
Ay gözümün işığı!

Gəlmisən, əcəb gəlmisən,
Gəlməsydin, mən gələrdim.
Ölümə səbəb gəlmisən,
Ölsəm, elə dincələrdim...

## ƏSRİN GƏDALARINA

Əllərimdən öpərdi,
Bu gədalar dayısı.
İndi ayaqlarımı,
Tapdalayır hamısı

Dünən uşaq olublar,
Yoxsa, bu gün - bilmirlər.
Mənim qocaldığımı,
Amma yaxşı bilirlər.

Qocaman aslan hara,
Soysuz gədalar hara?
Di gəl, qoşulammıram,
Əsrin gədalarına...

**2019**